

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 242 (21.903)

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

*21 dekabr 2017-ci il, cümə axşamı*

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının icraçı direktoru Malkolm Honlaynı qəbul edib.

* * *

Dövlətimizin başçısı dekabrın 20-də Xalq rəssamı, heykəltəraş Ömər Eldarova "Heydər Əliyev" ordenini təqdim edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün IBM korporasiyasının baş vitse-prezidenti Erik Klementini qəbul edib.

* * *

Prezident İlham Əliyev dekabrın 20-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti ravvin Mark Şnayeri qəbul edib.



## Türkiyənin Baş naziri Binəli Yıldırım Naxçıvan Muxtar Respublikasına səfərə gəlib



Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım dekabrın 20-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.

Naxçıvan Beynəlxalq Hava Limanında Türkiyənin Baş nazirini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşılayıb.

**AZƏRTAC**

## Türkiyənin Baş naziri Naxçıvan şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib





Dekabrın 20-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib.

Baş nazir Binəli Yıldırım abidənin önünə əklil qoyub.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın görüşü olub

Dekabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın görüşü olub.

Ali Məclisin Sədri Vasif Talıbov Baş nazir Binəli Yıldırımı qarşıladı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın yaranma tarixi və müasir inkişafı barədə məlumat verərək dedi: Naxçıvan Muxtar Respublikası 1921-ci ildə imzalanmış beynəlxalq Qars müqaviləsinə əsasən yaradılıb. Azərbaycan Respublikasının tərkibində muxtar dövlət olan Naxçıvan Muxtar Respublikasının öz Konstitusiyası, parlamenti, icra və məhkəmə hakimiyyətləri vardır. Ərazisi 5,5 min kvadratkilometr, əhalisi 450 mindən artıq olan Naxçıvan Muxtar Respublikası paytaxt Naxçıvan şəhərindən və 7 rayondan ibarətdir. Azərbaycan türklərinin qədim torpağı Naxçıvanda 1200-dən çox türk-islam mədəniyyəti abidəsi var. Beşminillik şəhər mədəniyyətinə malik Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilib.

Qeyd edilib ki, 25 ildən artıqdır blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada ərzaq və enerji təhlükəsizliyi təmin olunub, alternativ enerji mənbələrindən istifadə imkanları və yerli istehsalın həcmi artırılıb. Muxtar respublikada müasir infrastruktur yaradılıb. Təhsil ocaqlarında elektron tədris vasitələrindən istifadə olunur. Bu gün Naxçıvanda 3 ali, 3 orta ixtisas, 215 ümumtəhsil məktəbi, eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi fəaliyyət göstərir. Elm və təhsil müəssisələrimiz qardaş Türkiyənin müvafiq qurumları ilə sıx əməkdaşlığa malikdir.



Azərbaycan-Türkiyə əlaqələrinin əsasının xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə qoyulduğunu deyən Ali Məclisin Sədri bildirib ki, 1993-cü ildən isə bu münasibətlər bir millətin iki dövləti səviyyəsinə qalxıb. Qeyd edilib ki, bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksələn dostluq və qardaşlıq münasibətlərimiz hər iki ölkə prezidentlərinin iradəsinə uyğun olaraq inkişaf edir və bu əlaqələr dünyaya nümunədir. Azərbaycan və Türkiyə beynəlxalq aləmdə daim bir-birinə dəstək olur, eyni mövqedən çıxış edir.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikasının da mühüm yeri olduğunu bildirən Ali Məclisin Sədri diqqətə çatdırıb ki, təhsil, səhiyyə, mədəniyyət, ticarət, iqtisadiyyat və ordu quruculuğu sahələrində əlaqələrin inkişafı məmnunluq doğurur.

"Naxçıvanın xarici ticarət dövriyyəsində Türkiyə Respublikasının payı bu ilin 11 ayında ötən ilə nisbətən 2 milyon ABŞ dolları artaraq 7 milyon 685 min ABŞ dolları təşkil edib. Qardaş ölkə hökumətinin qəbul etdiyi yeni tənzimləmə qərarına əsasən, Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinə Türkiyəyə məhsul ixracında sərbəst ticarət imkanının verilməsi də xarici ticarət dövriyyəsinin artırılması baxımından mühüm əhəmiyyətə malikdir", – deyən Ali Məclisin Sədri bu qərara görə qardaş Türkiyə hökumətinə hörmət və ehtiramını bildirib.

Azərbaycan və Türkiyə xalqlarının tarixən bir yerdə olduğunu vurğulayan Ali Məclisin Sədri Vasif Talıbov Türkiyə Baş nazirinin Naxçıvana səfərinin bu əlaqələrin yüksək səviyyəsinin göstəricisi olduğunu diqqətə çatdırıb.

2009-cu ildən sonra yenidən qədim Naxçıvan torpağına səfərindən məmnunluğunu bildirən Türkiyənin Baş naziri Binəli Yıldırım ötən müddət ərzində Naxçıvanın böyük inkişafa nail olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısındakı iştirakını və çıxışını xatırladan Baş nazir qeyd edib ki, Azərbaycan Prezidentinin həm Qüds məsələsi, həm də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dedikləri olduqca əhəmiyyətlidir.

Baş nazir ölkələrimiz arasında münasibətlərin son 15 ildə sürətlə inkişaf etdiyini, bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əlaqələrimizin daha da inkişafında xüsusi yer tutduğunu diqqətə çatdırıb. Türkiyə ilə Azərbaycan arasında, həmçinin iqtisadiyyat, təhsil, hərbi və digər sahələrdə də əməkdaşlığın yüksək səviyyədə olduğu bildirilib.

Söhbət zamanı İğdırın və Naxçıvanın hava limanları arasında əməkdaşlığın inkişaf perspektivləri barədə də fikir mübadiləsi aparılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr olub.

**AZƏRTAC**



## Türkiyənin Baş naziri Binəli Yıldırımın Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb

Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın dekabrın 20-də Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

Naxçıvan Beynəlxalq Hava Limanında Türkiyənin Baş nazirini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yola salıb.

**AZƏRTAC**

## Xarici iqtisadi əlaqələrin genişlənməsi muxtar respublikanın dünya iqtisadiyyatına sürətli inteqrasiyasını təmin edir

***Xarici iqtisadi əlaqələrin genişlənməsi istənilən ölkənin və yaxud regionun əsas sosial-iqtisadi inkişafının göstəricisidir. Eyni zamanda bu əlaqələr mövcud daxili bazarın tələbatının ödənilməsindən sonra ixrac ehtiyacı yaradan amillər hesabına formalaşır. Təbii ki, burada, ilk növbədə, daxili iqtisadiyyatın davamlı inkişafı ön plana çıxır. Bu inkişafı şərtləndirən əsas amillər isə müxtəlifnövlü məhsul istehsalının artımına, nəticədə, yerli istehsal imkanlarının genişlənməsinə nail olunmasıdır.***

Ölkəmizin sosial-iqtisadi inkişafında sənaye və kənd təsərrüfatı kimi əsas iqtisadi sahələrə daha çox investisiyaların qoyulması prioritet vəzifələr sırasına daxil edilib. Bununla yanaşı, respublikamızda çoxşaxəli iqtisadi inkişaf strategiyasını həyata keçirmək üçün iqtisadiyyatın bütün sahələrinin və regionların hərtərəfli inkişafına nail olmaq əsas vəzifə kimi qarşıya qoyulub. Ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyətli belə vəzifələrin həyata keçirilməsində Naxçıvan iqtisadi regionunun da mühüm payı vardır. Blokada şəraitində olmasına baxmayaraq, reallaşdırılan iqtisadi layihələr sayəsində bu gün muxtar respublikada 1995-ci illə müqayisədə sənaye məhsulunun həcmi 103,2 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi isə 11,1 dəfə artıb. Yerli məhsul istehsalının artması, öz növbəsində, daxili bazarda məhsul bolluğu yaratmaqla yanaşı, muxtar respublikanın ixrac potensialını artırıb, idxalın həcmini isə əhəmiyyətli dərəcədə azaldıb. Bu iqtisadi fəallıq Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrinin inkişafına öz töhfəsini verib.

Xarici ticarət dövriyyəsinin ildən-ilə artımı 2009-cu ildən müsbət saldonun qeydə alınması ilə nəticələnib və növbəti illərdə dövriyyə həcminin artması ilə paralel olaraq, müsbət saldonun payı da artıb. Eyni zamanda bu artım idxal və ixrac arasındakı həcm payında 10 dəfədən çox fərq yaradır. Belə ki, 2016-cı ilin yekunlarına görə, muxtar respublikada xarici ticarət dövriyyəsinin 9,5 faizi idxalın, 90,5 faizi isə ixracın payına düşüb.

Qeyd etmək lazımdır ki, Naxçıvanın ixracat imkanlarını artıran çoxşaxəli iqtisadiyyat yerli istehsal imkanlarından istifadə edilməsi, müxtəlifnövlü məhsul istehsalı ilə mümkün olub. Ötən dövrdə muxtar respublikanın zəngin təbii ehtiyatları, xammal və enerji mənbələrinin istehsal prosesinə cəlb olunması, nəticədə, müxtəlif sahələrdə məhsul istehsalının davamlılığını təmin edib. Həyata keçirilən iqtisadi layihələr hesabına son dövrlərdə elektrik enerjisindən tutmuş ərzaq və qeyri-ərzaq məhsullarının istehsalınadək iqtisadi çoxşaxəliliyə nail olunub. Bu da, öz növbəsində, 2017-ci ilin ötən dövründə də muxtar respublikadan ixrac olunan malların həcmini artırmaqla yanaşı, ixrac və idxal arasındakı fərqi bir qədər də artırıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin cari ilin 11 aylıq yekunları ilə bağlı açıqlamasında bildirilir ki, muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb, 2017-ci ilin yanvar-noyabr aylarında 415 milyon 628 min 200 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz artaraq 382 milyon 549 min 300 ABŞ dolları, idxalın dəyəri 3,9 faiz azalaraq 33 milyon 78 min 900 ABŞ dolları təşkil edib. Nəticədə, xarici ticarətdə 349 milyon 470 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaradıb.

Bu faktı da qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikadan Türkiyə, İran, Gürcüstan, Rusiya, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Qətər kimi ölkələrə məhsullar ixrac edilir. Bu il Naxçıvanın ixrac potensialını artırmaq məqsədilə qəbul edilmiş mühüm qərarlardan biri muxtar respublika ilə Türkiyə Respublikası arasında əldə olunmuş razılığa əsasən Naxçıvan məhsullarının qardaş ölkəyə idxal rüsumları ödəmədən ixrac edilməsidir. Digər tərəfdən, son illərdə Naxçıvanla İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti arasında əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişafı, qarşılıqlı etimada əsaslanan işgüzar görüşlərin təşkili və sair də muxtar respublikanın xarici ticarət əlaqələrinin genişlənməsində mühüm addım kimi dəyərləndirilməlidir. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dekabrın 17-18-də İran İslam Respublikasına rəsmi səfəri, bir sıra yüksək səviyyəli görüşlərin keçirilməsi mövcud əməkdaşlıq imkanlarının daha da genişləndirilməsindən, xüsusilə islam respublikası ilə iqtisadi müstəvidə əlaqələrin bundan sonra da artan xətt üzrə inkişafının zəruriliyindən xəbər verir.

Bunu da vurğulamaq lazımdır ki, xarici ticarət əlaqələrinin genişlənməsi Naxçıvanın dünya iqtisadi sisteminə sürətli inteqrasiyasını şərtləndirən mühüm amildir. Dünya ölkələrinin təcrübəsi də göstərir ki, heç bir ölkə yalnız öz sərhədləri daxilində yüksək iqtisadi tərəqqiyə qovuşa bilməz. Digər tərəfdən, bu gün xarici iqtisadi əlaqələrin səviyyəsi ölkələrin iqtisadi gücünün və beynəlxalq aləmdəki nüfuzunun əsas göstəricilərindən biri hesab olunur. Bu nüfuz beynəlxalq arenada bir çox problemlərin həllində mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş kimi və etibarlı dost kimi təsdiq edə bilmişdir".***

Buradan isə o nəticəyə gəlmək mümkündür ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının beynəlxalq ticarət əlaqələrində rolunun artırılması üçün geniş imkanları var. Xüsusilə Naxçıvanın Şərq-Qərb istiqamətindəki strateji mövqeyi, tranzit dəhliz kimi tarixdəki rolunun bərpa olunması istiqamətində dövlətimiz tərəfindən həyata keçirilən transmilli layihələr yaxın gələcəkdə muxtar respublikanın xarici ticarət əlaqələrindəki rolunu, deməli, həm də dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirəcək.

**✍ Səbuhi HƏSƏNOV**

## Qənaət və səmərəlilik davamlı iqtisadi inkişafın əsasıdır

***Həyat çoxşaxəli və rəngarəng olsa da, hər bir insan üçün iqtisadi tələbatlar həmişə özünü göstərir. Bu mənada, dünyanın ən kamil varlığı olan insanın çatdığı müasir mədəni səviyyəyə məhz iqtisadiyyatın inkişafı ilə nail olunduğunu da deyə bilərik. İqtisadiyyatın əsasında isə insan üçün yaradılmış bütün maddi nemətlərdən israfçılığa yol vermədən, qənaətlə istifadə olunması durur. Elə buna görə də bugünkü iqtisadçılar arasında populyar olan davamlı inkişaf konsepsiyasının dili ilə desək, müasir cəmiyyətin artan tələbatları ödənilməli və bunun üçün də hər sahədə rasionallığa və səmərəliliyə çalışılmalıdır.***

Qənaət və ümumilikdə, iqtisadiyyat kifayət qədər mürəkkəb anlayışlardır. Təsadüfi deyil ki, bir sıra dünya dillərində bu iki kəlmə elə sinonim kimi də işlənilir. Amma iqtisadiyyat nə qədər mürəkkəb olsa da, əslində, burada çox sadə məntiqi təfəkkürə əsaslanan elmi mülahizələr vardır. Belə ki, tarixdə sınaqdan çıxmış elə mühüm iqtisadi qanunlar vardır ki, onlar həmişə öz təsirini göstərib. Müasir, qloballaşma və qlobal rəqabət dövründə isə bu qanunlar daha ciddi şəkildə özünü ortaya qoyur. Yəni indi iqtisadiyyat deyəndə əmək ehtiyatlarından enerji resurslarına, xammal hasilatından maliyyə imkanlarınadək hər sahədə keyfiyyət, bazarın tələb və təklifi, qənaət və səmərəlilik prinsipləri əsas planda tutulur. Başqa sözlə, əgər dünyada təbii ehtiyatların getdikcə azaldığını, əhali sayının da artdığını görürüksə, onda hələ müqəddəs kitablarda da insanlara tövsiyə edilən qənaətli yaşamağı hamının öyrənməsini də bir həyat standartı kimi mənimsəməliyik.

Qənaət haqqında danışılanda bəzən, sadəcə bir şəxsin, yaxud bir ailədəki pul vəsaitlərinin sərbəst qalan hissəsinin yığıma yönəldilməsi məqsədləri üçün istifadə nəzərdə tutulur. Ancaq iqtisadiyyatın yalnız pulla ölçülmədiyini, insana lazım olan bütün maddi nemətlərin dəyərinin lazımınca qiymətləndirilməsinin nə qədər vacib olduğunun da tez-tez şahidi oluruq. Bunun əhəmiyyəti isə təkcə bir nəfərin deyil, ümumilikdə, bütün cəmiyyətin rifahının təmin olunmasında özünü göstərir. Məsələn, bu gün muxtar respublikamızda daxili bazarın qorunması, yerli istehsalın təşviqi, enerji və ərzaq təhlükəsizliyinin yaradılması, iqtisadiyyatda çoxşaxəliliyin təmin olunması istiqamətində görülən bütün işlər məhz ölkəmiz üçün ən strateji mənbələrdən sayılan valyuta ehtiyatlarımızın qorunmasına mühüm töhfə verən addımlardandır.

Qənaətlə yaşamaq, qənaətlə iş görmək bu gün bütün dünya iqtisadiyyatının tələbidir. Məhz qənaətlə əldə edilən nəticələrə baxsaq, ərzaq və enerji bolluğunun yaradılması, maliyyə fondlarının artırılması, təbii ehtiyatların mühafizə olunub gələcək nəsillərə qədər çatdırılmasında bunun əhəmiyyəti görünməkdədir. Misal üçün, bu gün muxtar respublikada, onun paytaxtından ən uzaq kəndlərinədək hər yerdə gecəsi də gündüz kimi çıraqbandırsa, bu bizim hamımızın sərvəti deyilmi? Bu sərvəti görəndə çox deyil, cəmi 20 il əvvəlki Naxçıvanın yarıqaranlıq, soyuq gecələri bir daha yada düşür. Ancaq o günləri xatırlayanda həmin çətinliklərin arxada qalmasından arxayınlaşmamalı, böyük zəhmətlə başa gələn elektrik stansiyalarının və bütün infrastrukturun hasil etdiyi enerjinin hər kilovat-saatına qənaət etməyi də bir vətəndaş kimi yaxşı dərk etməliyik. Çünki bu gün bol olan elektrik enerjisinin itirilən hər kilovatı, hardasa, bir istehsal yerində yaradılacaq maddi nemətlərin də itkisi deməkdir.

Çox vaxt ən gözəl qənaətin vaxta qənaət olduğunu düşünürük. Doğrudan da, elə insanlar vardır ki, onlar üçün yarımsaatlıq asudə vaxt göydəndüşmədir. Amma vaxt heç kimi gözləmir. Çoxları günlərlə deyil, hətta aylar və illərboyu keçirdiyi boş vaxtı, sadəcə, mütaliə ilə məşğul olsalar, bu da onların qazancı olacaq. Ancaq bu gün qənaət və səmərəlilikdən danışırıqsa, ən əziz nemət olan çörəyin, tikilmiş yeni binaların, abad yolların, körpülərin qədrini bilməliyik. Axı bütün bunlar heç də asan başa gəlmir. Misal üçün, ötən günlərdə Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində xidmət mərkəzinin açılışı zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin kənd əhalisinə xitabən dediyi sözləri yada salsaq, bunu bir daha təsdiq edərik. Ali Məclisin Sədri yaradılanların qədrinin bilinməsi, onlardan səmərəli istifadə olunmasını tövsiyə edərkən bu gün artıq Qaraxanbəyli və bunun kimi onlarla digər Naxçıvan kəndlərinin çox da uzaq olmayan keçmişdəki ağır sosial şəraitdən şəhər simasınadək keçən yoldakı gərgin zəhməti bir daha xatırladırdı. Bəli, 1995-ci ildən başlayan yola nəzər salarkən görürük ki, bu dövrdə Naxçıvan Muxtar Respublikasının əhalisi yoxsulluq həddindən ən firavan yaşayış səviyyəsinə qovuşmuşdur. Bütün bunların gerçəkləşməsi isə istifadə olunan hər bir resursun rasionallıqla xərclənməsi, onların dayanıqlı və uzunmüddətli sərfinin təmin olunmasıdır.

Bir istehlakçı kimi öz tələbatlarımızda necə qənaətli ola bilərik? Bu sual, şübhəsiz, bir fərd kimi hər kəsi düşündürsə də, söhbət ictimai maraq, yaxud kollektiv tələbatlara gəldikdə bir sıra vətəndaşların buna hələ hazır olmadığını görürük. Misal üçün, tələbatdan artıq çörək alıb, sonra da onu tullantı kimi atmaq doğrudurmu? Çörək demişkən, bu gün qiyməti sudan da ucuz olan bu əvəzsiz nemətin süfrəyə gəlməsinədək keçən bütün istehsal proseslərinin xərclərini nəzərə alsaq, əsl dəyərindən dəfələrlə aşağı qiymətə satılan çörəyə də qənaət ən böyük savab və məsuliyyət deməkdir. Axı yaradılmış çörək bolluğu o demək deyil ki, ona qarşı israfçılıq edək. Müqəddəs kitabımız "Qurani-Kərim"in Araf surəsindəki 31-ci ayəsində buyurulub: *"...gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki Allah israf edənləri sevməz"*. Doğrudan da, dünyada ölkəmizdən də daha böyük, daha geniş və münbit torpaqları olan bəzi ölkələrdəki aclıq çəkən insanları yada salaq. Hər gün ərzində tullantı edilən milyonlarla ədəd çörək üçün möhtac olan insanlar var axı. Yaxud ailə büdcəsini və ya əhalinin alıcılıq qabiliyyəti yüksək olmayan təbəqəsini düşünmədən bazar-dükanlardan şöhrət xatirinə nə gəldi alıb, axıra qədər istehlak etmədən yarısını atanları gördükdə onların tapşırılmış bir işi iki dəfə edib artıq büdcə xərclərinə yol verənlərlə eyni dərəcədə israfçı olduğunu da deyə bilərik. Ona görə də istehlak məsələsində diqqətli olmaq, yerli analoqu olduğu halda, idxal məhsullara üstünlük verməmək ən böyük vətənpərvərlik və həm də savab işdir. Çünki, sözün əsl mənasında, özünə qarşı tələbkar olanlar ölkəsinin iqtisadi qüdrətinin artması üçün də həmişə fədakarlıq etməyə hazırdırlar. Biz də iqtisadi cəhətdən güclü olmalıyıq ki, həmişə söz sahibi olaq.

**✍ Əli CABBAROV**

## Kompleks quruculuq tədbirləri həyata keçirilir

*2017-ci il Şərur rayonunun quruculuq xəritəsinə yeni çalarlar gətirib. Bu dövrdə bölgənin bir sıra yaşayış məntəqələrində inşaat işləri aparılıb. Bu tədbirlərdən Ərəbyengicə kəndinə də pay düşüb. Bir neçə aydır ki, kənddə aparılan kompleks quruculuq işləri artıq yekunlaşdırılmaqdadır.*

Yaxın vaxtlarda məktəb, səhiyyə, kənd və xidmət mərkəzlərinin yeni binalarından istifadə olunacaq. Kənd tam orta məktəbinin binası 3 mərtəbədən ibarətdir. Tədris müəssisəsinin yeni binasında müəllim və şagirdlərin ixtiyarına işıqlı sinif otaqları, kimya, biologiya və fizika laboratoriyaları, elektron lövhəli sinif, kompüter otağı, hərbi və şahmat kabinələri veriləcək. Binada son tamamlama işləri aparılır.

Kompleks quruculuq tədbirləri çərçivəsində 2 mərtəbədən və 12 otaqdan ibarət həkim ambulatoriyası üçün də yeni bina inşa olunub. 8 nəfərin işlə təmin olunacağı səhiyyə ocağında kənd sakinlərinə nümunəvi tibbi xidmət göstərmək üçün müasir avadanlıqlardan istifadə ediləcək.

Dövlət qurumlarının fəaliyyət göstərəcəyi kənd mərkəzi ikimərtəbəlidir. Kənd mərkəzinin binasında inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının, kitabxananın, klubun, poçtun, ATS, baytarlıq və polis məntəqələrinin fəaliyyətinə hərtərəfli şərait yaradılıb. Ərəbyengicə sakinlərinə daha bir hədiyyə olan birmərtəbəli xidmət mərkəzində sənaye və təsərrüfat malları mağazaları, bir neçə xidmət sahəsi yerləşəcək. Bu quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları həyata keçirir.

**Xəbərlər şöbəsi**

*Tarixən Naxçıvan diyarının coğrafi mövqeyi onun Çin, Hindistan, İran, Türkiyə, Yunanıstan, Rusiya və hətta Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri yaradılması üçün çox əlverişli olub. Böyük İpək Yolunun daha intensiv işlədiyi dövrlərdə Çin və Hindistandan alınan mallar İran ərazisindən keçməklə Naxçıvana daxil olur və buradan iki tranzit ticarət yolu – Naxçıvan-Tiflis-Qara dəniz və Naxçıvan-İrəvan-İstanbul yolu vasitəsilə Avropa ölkələrinə aparılırdı. Son orta əsrlər dövründə Naxçıvanın tranzit ticarət yollarının kəsişdiyi düyün nöqtəsi olmasını, xarici tacirlərin burada intensiv ticarətlə məşğul olmalarını qədim diyarımızın müxtəlif ərazilərində qalıqları günümüzə qədər gəlib çatmış neçə-neçə karvansaraylar da təsdiq edir.*

*Tariximizin yadigarları*

# Naxçıvanın qonaqlama məkanları: *karvansaraylardan otellərədək*


Culfa karvansarayı


Ordubad karvansarayı

Naxçıvan ərazisindən keçən karvan yollarının əsas atributlarından biri karvansaraylar idi. Bu sahədə aparılan tədqiqatlar göstərir ki, karvansaraylar yalnız əsas ticarət mərkəzləri olan şəhərlərdə deyil, həm də xarici karvanların hərəkət etdiyi ticarət yolları üzərində tikilirdi. Naxçıvanda İpək Yolu üzərindəki karvansarayların fəaliyyətindən bəhs edən tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev yazır ki, burada indi də yerli əhali arasında yaşayan rəvayətdə I Şah Abbas zamanı Səfəvilər dövləti ərazisində 999 karvansaray tikilməsi haqqında bəhs edilir.

Qeyd edək ki, karvansaraylar tacirlərin və yük heyvanlarının dincəlməsi üçün zəruri bir məntəqə olmaqla yanaşı, ticarət karvanlarının quldur basqınlarından qorunmasında da mühüm rol oynayırdı. Elə buna görə də karvansarayların tikintisi zamanı müəyyən şərtlərə əməl etmək tələb olunurdu. Gecə vaxtı hərəkət etmək təhlükəli olduğundan yolüstü karvansaraylar arasında məsafənin gözlənilməsi vacib şərt idi. Daha doğrusu, səhər tezdən bir karvansaraydan hərəkətə başlayan karvan qaranlıq düşənə qədər növbəti karvansaraya çatmalı idi. Karvansaray tikdirmək üçün yer seçilərkən onun su ilə təchiz olunması məsələsinə də xüsusi fikir verilirdi. XVIII əsrdə Azərbaycanda tikilmiş yolüstü karvansaraylar haqqında məlumat verən rus tədqiqatçısı P.Q.Butkov yazırdı ki, çay, bulaq, göl kimi su mənbələrinin olmadığı yollarda tikilən karvansaraylar daha çox su quyuları və ovdanlar vasitəsilə su ilə təmin olunurdular. Karvansaraylarda tacirlərin gecələməsi üçün şərait yaradılmaqla yanaşı, bu karvansarayların yanında yük heyvanları üçün tövlələr də inşa edilirdi. Əməkdar incəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradov qeyd edir ki, bu mənada, Naxçıvandan Gürcüstana gedən ticarət yolunun Qarabağlar kəndinin ərazisindən keçən hissəsindəki karvansaray xüsusilə diqqəti cəlb edir. Müəllif yazır ki, tədqiqatçı V.Qriqoryevin təsvirlərinə görə, bu karvansaray bütün tələblərə cavab verirdi. Hər an gözlənilən quldur hücumlarının qarşısını almaq üçün onun ətrafına 50 sajen uzunluğunda hündür divar çəkilmişdi. Güman etmək olar ki, əslində, böyük bir kompleks olan Qarabağlar karvansarayından tacirlər yalnız gecələmək üçün deyil, həm də ticarət əməliyyatları aparmaq üçün istifadə edirdilər.

Bundan əlavə, ticarət yolları üzərində tacirlərin ancaq gecələməsi üçün nəzərdə tutulan kiçikölçülü karvansaraylar da tikilirdi. Belə karvansaraylara misal olaraq, Naxçıvan-Biçənək-Şuşa ticarət yolunun üstündə yerləşən və Şahbuz rayonunun Biçənək kəndinin şimalında, meşənin içində tikilmiş cəmi iki otaqdan ibarət olan karvansarayı göstərmək olar. Bununla yanaşı, Naxçıvan ərazisindəki bəzi bulaqların adı da məhz karvansaraylarla bağlı olmuşdur. Belə bulaqlardan ikisi Şahbuz rayonunun Gömür kəndindən 7 kilometr şimal-şərqdə, okean səviyyəsindən 2260 metr yüksəklikdə yerləşən Karvansaray bulaqlarıdır.

Naxçıvan ərazisində yerləşən ən möhtəşəm şəhər karvansaraylarından biri də Xaraba Gilandadır. Xaraba Gilan ərazisində arxeoloqlar tərəfindən şərti olaraq II və III məhəllələr adlandırılan sahələrin arasında yerləşən bu karvansaray böyük bir qaya üzərindədir. Tədqiqatçıların qeydlərindən aydın olur ki, bu karvansaray kompleksi yataq, məişət, təsərrüfat otaqlarından, anbarlardan və tövlələrdən ibarət olmuşdur. XII-XIII əsrlərə aid edilən Culfa karvansarayı isə nəinki Naxçıvan Muxtar Respublikası, ümumilikdə, müasir Azərbaycan Respublikasının ərazisində elm aləminə məlum olan ən böyük karvansaraydır. Ümumi uzunluğu 37 metr olan Culfa karvansarayı şəhər karvansarayları qrupuna aid olub, orta əsrlərdə Culfa şəhərinin mühüm ticarət əhəmiyyəti daşıdığından xəbər verməkdədir. Çoxsaylı otaqları, böyük zallarının qalıqları bu gün də qalmaqda olan Culfa karvansarayı rayonun Gülüstan kəndi ərazisində yerləşir.

Yuxarı Əylis karvansarayı da orta əsrlər dövrünün mühüm qonaqlama məkanlarından olmuşdur. Ordubad rayonunun Yuxarı Əylis kəndinin mərkəzində, bazar meydanının cənubunda yerləşmiş XVII əsrə aid olan karvansarayın dövrümüzə qədər gəlib çatmış cənub və qərb divarlarını və zirzəmilərini görmüş tədqiqatçılar bu karvansarayın Naxçıvan ərazisində butipli ən möhtəşəm tikililərdən biri olduğu fikrindədirlər.

“Naxçıvan Abidələri Ensiklopediyası”nda diyarımızın ən qədim karvansaraylarından biri kimi Culfa rayonunun Camaldın kəndi ərazisində yerləşən karvansaray da qeyd olunur. Kitabda verilən məlumatda göstərilir ki, tarixi XII-XVII əsrlərə aid edilən bu karvansaray 6750 kvadratmetr ərazidə yerləşmişdir. Ərazidə dördkünc formalı tikintilərin qalıqları bu gün də qalmaqdadır. Haçadağ ətrafından keçən karvan yollarını öyrənən tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev tərəfindən aşkara çıxarılmış karvansaray da son illərin maraqlı tədqiqat obyektlərindən biridir. Tədqiqatçı hündürlüyü 3 metr 50 santimetr, uzunluğu 12 metr, eni isə 7 metr olan karvansarayın tikiliş üslubuna görə XVI əsrə aid olduğu qənaətinə gəlmişdir.

Sədərək karvansarayı da vaxtilə tacirlərin mühüm qonaqlama məkanlarından biri olmuşdur. Sədərək ərazisi tarixən karvanların keçid məntəqəsi rolunu oynadığından burada yerləşən karvansaray da, necə deyərlər, daim qonaqlı-qaralı olub. Sədərək kəndinin cənubunda yerləşmiş bu karvansarayın hətta XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərdiyini də deyirlər. Qeyd edək ki, Sədərək karvansarayının adına ötən əsrin əvvəllərinə aid tarixi sənədlərdə də rast gəlinir.

Ümumiyyətlə götürdükdə Naxçıvan tarixən Şərqdən Qərbə, vaxtilə həm də Cənubdan Şimala doğru hərəkət edən karvanların əsas kəsişmə nöqtəsi olub. Bu isə Naxçıvana dünyanın müxtəlif ölkələrindən yolu düşənlərin sayını artırıb. Təbii ki, xalqımızın qonaqpərvərliyi də bu ərazidən gəlib keçənlərə öz təsirini göstərib. Bundan irəli gəlir ki, orta əsr tacir və səyyahlarının çoxu Naxçıvanda qarış-qarış gəzib, bölgə insanlarının qonaqpərvərliyi, səxavəti, zəhmətkeşliyi haqqında yazdıqları xatirələrdə bəhs ediblər.

Bəzən belə bir ifadə işlədirik ki, tarix təkrar olunur. Müstəqilliyimizin bərpasından sonra muxtar respublikamızın ərazisi blokadaya salınsa da, regionun inkişafının qarşısını heç nə ala bilmədi. Blokada, sadəcə, Cənubdan Şimala doğru nəqliyyatın hərəkətini dayandırdı. Müasir dövrdə Naxçıvan, orta əsrlərdə olduğu kimi, yenə də Şərqdən Qərbə doğru hərəkət edən maşın karvanlarının əsas hərəkət istiqamətlərindəndir. Həmin dövrdə olduğu kimi, bu gün də Naxçıvana üz tutanlar, bu qədim diyarın tarixinə, mədəniyyətinə, təbiətinə maraq göstərənlər az deyil. Ancaq orta əsrlərdən fərqli olaraq müasir Naxçıvan öz qonaqlarını yeni dövrün tələblərinə uyğun fəaliyyət göstərən otel və mehmanxanalarında qarşılayır. “Təbriz”, “Duzdağ”, “Grand-Naxçıvan”, “Avtovağzal”, “Nəqşicahan”, “Ağbulaq”, “Araz” və adını sadalamadığımız digər mehmanxana, otel və istirahət mərkəzlərinə üz tutan qonaqlar burada milli mətbəximizin ləziz nümunələri ilə tanış olur, əsrlər əvvəl olduğu kimi, bu gün də Naxçıvanın dadı və tamı ilə seçilən ekoloji məhsullarından istifadə edirlər. Bir sözlə, bu diyara yolu düşən qonaqları əsrlər əvvəl karvansaraylar, bu gün isə onların varisləri olan otellər qarşılayır.

**Səbuhi HƏSƏNOV**

---

*Milli qəhrəmanlarımız*

# Şəhidliyə ucalaraq ölümsüzlüyə qovuşan qəhrəman

*(Oçerk)*



Azərbaycanın Milli Qəhrəmanı şəhid İbrahim Məmmədov haqqında hazırlayacağım yazıya başlayarkən 5 yaşlı nəvəm yazı masama yaxınlaşıb İbrahimin şəklini əlinə götürdü:

– Baba, bu kimdir ki?

– Qəhrəmandır.

– Qəhrəman necə olur ki?

– Böyüyəndə bilərsən, – dedim və uşağın başa düşəcəyi qədər ona İbrahim Məmmədov haqqında məlumat verdim. İstəyirəm ki, onu tanımayan oxucularımıza da ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanımız barədə danışım...

...Paytaxt Naxçıvan şəhərindəki Şəhidlər xiyabanının yanından tez-tez keçirəm. Burada öz əzizlərini ziyarət etməyə gələnləri hər gün görmək olar. Bu günlərdə yolum yenə xiyabana düşmüşdü. Şəhidlərimizin uyuduğu həmin məkana daxil olub bir qədər ətrafa nəzər saldım. Dalğın baxışları ilə gözlərini şəhid məzarlarına zilləmiş analar diqqətimi cəlb etdi.

Onlardan biri başını qaldırıb ətrafa baxır. Onunla çoxdankı tanış kimi başımla salamlaşıram. O da salamıma elə o tərzdə cavab verir. Gözlərinin dərinliklərində bir nisgil, intizar görürəm. Bir anda bu mənzərəni qürurla baxan gözlər əvəz edir. Düşünürəm ki, yəqin şəhidin anasıdır, belə oğul böyütdüyünü xatırlayır. Çox güman ki, onu doğma torpaq uğrunda ölüm-dirim müharibəsinə göndərdiyi gün yadına düşür.

...İbrahim 1958-ci ildə anadan olmuşdu. Onda ailələri Bakı şəhərində yaşayırdı. Bir qədər sonra Naxçıvana qayıdıblar. İbrahim Naxçıvanda boya-başa çatıb. O, hələ orta məktəbdə oxuduğu illərdə bir sıra şəxsi keyfiyyətləri ilə həmyaşıdlarından seçilib. Həyatının sonrakı dövrlərində bu keyfiyyətlər İbrahimi tanıyanlara onu sevdirən amillər olub. Orta məktəbi yüksək qiymətlərlə bitirib. Müstəqil həyata əmək cəbhəsində qədəm qoyub. Sonra iki il sovet ordusu sıralarında hərbi xidmətini başa vurub. Moskva şəhərində yaşayan gənc həmyerlimiz Bakı Dövlət Universitetinin Tarix fakültəsində qiyabi yolla təhsilini davam etdirməyə başlayıb.

Azərbaycanda baş verən hadisələri Moskvada izləyən gələcək Milli Qəhrəman doğma Vətənə qayıtmağı qərara alıb. Bu qayıdışla onun cəbhə həyatı başlayıb. Bir sıra döyüş bölgələrində – Ağdərədə, Zəngilanda, Füzulidə erməni faşistlərinə qarşı döyüşlərdə könüllü vuruşan eloğlularımıza nümunə olub. Ancaq könüllü batalyonların ləğvi İbrahimin arzularına müvəqqəti olaraq sədd çəkir. Məsələ onda idi ki, İbrahim Məmmədovun Rusiya vətəndaşı olması onun Azərbaycan Ordusu sıralarına qəbul edilməsinə maneə yaradır. Qəlbi doğma torpaqlarımızın azad edilməsi istəyi ilə döyünən İbrahim çıxış yolunu ulu öndərimiz Heydər Əliyevə müraciət etməkdə görür.

***Haşiyə.*** Bir neçə gün İbrahim özündə olmayıb. Küçəyə çıxıb, evə qayıdıb, ailə üzvlərinin suallarına könülsüz cavab veribmiş. Yemək rejimi də pozulubmuş. Buna 1993-cü il noyabr ayının 8-də son qoyulub. Ulu öndərimiz Heydər Əliyev İbrahimin Azərbaycan Ordusu sıralarına qəbul edilməsinə razılıq verir. O gün İbrahim leytenant rütbəsində ordu sıralarında xidmətə başlayır.

Bir ay sonra İbrahim Məmmədov bölük komandiri təyin olunur. Neftçalada yerləşən hərbi hissə 1994-cü ilin fevralında Goranboya göndərilir. Kəlbəcər ərazisində gedən döyüşlərdə iştirak edir. İbrahimin rəhbərliyi ilə bu döyüşlərdə igid eloğlularımız böyük qəhrəmanlıqlar göstərir, torpaqlarımızın müdafiəsində canlarından belə, keçməyə hazır olduqlarını nümayiş etdirirlər. Bu döyüşlərdə İbrahim düşmənin bir ədəd zirehli texnikasını, sonra isə 40 nəfər düşmən əsgərini mühasirəyə alaraq məhv edir. Bundan daha da azğınlaşan düşmən hücumlarını bir qədər də genişləndirir. Lakin qəhrəman eloğlularımız bu hücumların qarşısını yerindəcə alır, düşmən böyük itki ilə geri çəkilir. İbrahim Məmmədovun əsl komandirlik bacarığı bu döyüşlərdə üzə çıxır. Əsgərlərimiz onun simasında bütün qanı və canı ilə doğma torpağa bağlı hərbçi görürlər. O, düşmən qarşısında mərdliklə dayanan, ölümün gözünə dik baxan əsgərlərimizin mənəvi-psixoloji durumunu düzgün dəyərləndirməyi diqqətdə saxlayır, hər bir əsgərin yaxın sirdaşına çevrilir.

İbrahim Məmmədovun döyüş yolunda yaddaqalan hadisələr çoxdur. Bu hadisələrin hər birində Vətən torpağının düşmənlərdən azad olunması üçün şücaət və qəhrəmanlıq var. Bugünkü gənclik üçün örnək olan həmin hadisələrdən biri 1994-cü il fevral ayının 16-da Kəlbəcər rayonunun strateji əhəmiyyətli Yanşaq kəndi ərazisindəki döyüşlərdə onun və yoldaşlarının göstərdikləri qəhrəmanlıqdır. İbrahim Məmmədov həmin gün düşmənin iki tankını məhv etdikdən sonra üçüncü tankla üz-üzə gəlir, həmin tankı da sıradan çıxarır, qeyri-bərabər döyüşdə şəhidlik zirvəsinə ucalmaqla öz yoldaşlarını ölümdən qurtarır.

Xalqımızın bu igid oğlunun qəhrəmanlığı bir neçə gün respublikamızda çap olunan qəzetlərin səhifələrində işıqlandırılır, televiziya kanallarında göstərilir. Mətbuat və televiziya vasitəsilə belə övlad böyüdən valideynlərə minnətdarlıq hissləri ifadə olunur.

Bir neçə ay sonra qəzetlərdə İbrahim İsmayıl oğlu Məmmədova Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı dərc edilir. 20 iyun 1994-cü il tarixli bu fərmanla xalqımızın ümummilli lideri Heydər Əliyev neçə ay əvvəl Azərbaycan Ordusu sıralarına qəbul edilmək üçün ondan kömək istəyən bir qəhrəman Azərbaycan övladını ölkənin ən böyük mükafatına layiq bilir. Ötən illərdə Bakının Yasamal rayonunda Azərbaycanın 9 milli qəhrəmanı sırasında İbrahim Məmmədovun da büstü ucaldılıb.

... 6 bacının 1 qardaşı olsa da, onu ərköyün böyütməmişdilər. Ancaq rəhmətlik atası İsmayıl müəllim övladının sərbəst böyüməsini istəyirdi, onun müstəqil qərarlar qəbul etməsinə hörmətlə yanaşırdı. Atanın belə qərarlar qəbul etməsi, qohum-qonşu arasında birmənalı qarşılanmırdı. Çoxları qınayırdı ki, ziyalılar ailəsinin bir oğlan övladı olan İbrahim orta məktəbi yaxşı qiymətlərlə bitirsə də, nə üçün ali məktəbi yox, zavodda fəhlə işləməyi üstün bildi? Ancaq İbrahimin hərəkətlərini təbii qəbul edənlər də vardı. Çünki İbrahimin qəlbində Vətənə sevgi, yurda məhəbbət, el-obaya hörmət hissləri çox güclü idi. İbrahim belə oğul idi. Qızı İradə deyir ki, nənə, mən İbrahim Məmmədov kimi bir insanın övladı olmağımla qürur duyuram. Fəxr edir ki, onun atası ərazi bütövlüyümüz uğrunda şəhid olub. Bu, hər kəsə nəsib olan ömür deyil.

İbrahim Məmmədov öz şərəfli ölümü ilə ölümsüzlüyə qovuşmağın nümunəsini göstərməklə onu tanıyanların, ümumilikdə, bütün Azərbaycan xalqının qəlbində əbədi yaşamaq hüququ qazanıb. Ömrü yarımçıq qırılsa da, anası, bacıları, yaxın qohum-əqrəbaları onunla qürur duyurlar. Çünki İbrahim bizə ata-baba əmanəti olan torpaqlarımız, ərazi bütövlüyümüz, müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda həlak olub.

*Qəbrin nurla dolsun, İbrahim!*

**Muxtar MƏMMƏDOV**

## Görkəmli bəstəkarla görüşlər keçirilib



***Naxçıvan Bəstəkarlar Təşkilatında görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" ordenli, professor Tofiq Bakıxanovla görüş keçirilib.***

Tədbiri giriş sözü ilə açan Təşkilatın sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov bildirib ki, Tofiq Bakıxanovun ictimai musiqi xadimi kimi fəaliyyəti zəngindir. O, 1958-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin üzvüdür. Musiqi sahəsindəki əməyinə görə Tofiq Bakıxanov dövlətimizin yüksək mükafatlarına layiq görülüb. Bu gün isə Naxçıvanla sıx yaradıcılıq əlaqələri saxlayan bəstəkara Naxçıvan Bəstəkarlar Təşkilatının fəxri üzvü seçildiyini təsdiq edən vəsiqə təqdim olunur.

Tədbirdə Naxçıvan Bəstəkarlar Təşkilatının məsul katibi, musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədovanın "Tofiq Bakıxanov: Naxçıvan sevincləri" və Tofiq Bakıxanovun elmi redaktorluğu ilə işıq üzü görən "Bəstəkar Nəriman Məmmədov" adlı kitablarının təqdimatı da olub. Müəllif kitabların ərsəyə gəlməsində ona yaxından köməklik göstərən Tofiq Bakıxanova minnətdarlığını bildirib, gələcəkdə tanınmış bəstəkarın xarici səfərləri barədə də kitab hazırlamağı planlaşdırdığını deyib.

Tədbirin sonunda çıxış edən Tofiq Bakıxanov Naxçıvanda musiqinin inkişafına göstərilən böyük qayğıdan danışıb. Naxçıvan Bəstəkarlar Təşkilatının fəxri üzvü seçildiyinə görə minnətdarlığını bildirib. Vurğulayıb ki, o, yaradıcılığının bir hissəsini bu yurda həsr edib. Gələcəkdə yaradıcılığımı yenə də bu istiqamətdə davam etdirəcəyəm, – deyən Tofiq Bakıxanov bildirib ki, Naxçıvanın inkişafı onu yeni yaradıcılıq uğurlarına sövq edir. Sonra Naxçıvan Dövlət Universitetində musiqi ixtisasında təhsil alan tələbələrin sualları cavablandırılıb, onlara bəstəkar tərəfindən yaradıcılıq istiqamətləri verilib.



* * *

Həmin gün bəstəkar Tofiq Bakıxanov Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələri, Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin müəllimləri ilə də görüşüb. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev Tofiq Bakıxanovun həyat və yaradıcılığına nəzər salıb, onun Azərbaycan bəstəkarlıq məktəbində böyük xidmətləri olduğunu qeyd edib. Bildirilib ki, 1930-cu ildə Xalq artisti Əhməd Bakıxanovun ailəsində dünyaya göz açmış Tofiq Bakıxanov mükəmməl musiqi təhsili alıb, Azərbaycan və dünya klassik musiqi ənənələrini mənimsəyib. Hələ gənclik illərində skripka ifaçısı kimi də tanınan böyük sənətkar bir çox səhnə əsərlərinə musiqi yazıb, baletlər, simfonik əsərlər, simfonik muğamlar, çoxlu sayda kamera-instrumental və kamera-vokal əsərləri, mahnılar, romanslar bəstələyib.

Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında Rauf Hacıyevin "Azərbaycan", Tofiq Quliyevin "Qaytağı", Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletindən rəqs, Fikrət Əmirovun "Sevil" operasından Balaşın ariyası, Tofiq Bakıxanovun "Görüş yeri" əsərləri səsləndirilib.

Sonda Tofiq Bakıxanov gənc musiqiçilərə yaradıcılıq tövsiyələri verib, onların sualları cavablandırılıb.

✍ **Fatma BABAYEVA**

*Yurdumuzun nemətləri*

## Yemişan ürək-damar və sinir sistemi üçün faydalıdır

***Bu giləmeyvənin faydalı xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur. Yemişan bir çox vitaminlər, mikroelementlər, orqanik turşular, efir yağları və sair faydalı maddələrlə zəngindir. Bu giləmeyvənin tərkibində insan orqanizmi üçün faydalı olan bəzi maddələrə təbiətdə az rast gəlinir. Məhz zəngin tərkibinə görə yemişan insan sağlamlığı üçün ən faydalı giləmeyvələrdən biri sayılır.***



Yemişanın təbabətdə istifadəsi Dioskritin dövründən məlumdur. Qədimdən bu ağacın çiçəkləri və meyvələri yuxusuzluqda, başgicəllənməsində, ürək ağrılarında, yel xəstəliklərində, aterosklerozda, ruhi pozğunluqda və epilepsiya zamanı istifadə edilib. Meyvələrinin maye ekstraktı, çiçəklərinin dəmləməsi dərman məqsədilə işlədilir. Yemişandan təbii ürək dərmanı kimi də istifadə edilir. O, ürək əzələlərinin yığılmasını qüvvətləndirir, ürək fəaliyyətinin ritmini normallaşdırır və qan dövranını gücləndirir. Bir çox ürək dərmanlarının tərkibinə yemişan ekstraktı daxil edilir. Giləmeyvənin tərkibində olan xeyirli maddələr ürəyin tac və beyin damarlarını genişləndirir, sinir sistemində olan oyanıqlığı azaldır. Bu meyvə ürək əzələsini tonuslaşdırır, taxikardiya və aritmiyanı aradan qaldırır. Bütün bunlarla bərabər, yemişan ürəyin və beyinin oksigenlə təchizatını artırır, maddələr mübadiləsini yaxşılaşdırır, yuxusuzluqla mübarizədə kömək edir, qanda xolesterinin səviyyəsini azaldır.

Bu giləmeyvənin əsasında hazırlanmış preparatlardan ürəyin işemik xəstəliyi, ürək çatışmazlığı və qanın qatı olmasının müalicəsi zamanı da istifadə olunur. Ağır və uzunsürən xəstəliklərdən sonra yemişandan hazırlanmış təbii dərmanlar daha tez sağalmağa kömək edir. İnfarkt keçirmiş insanlar üçün bu giləmeyvə çox xeyirli olmaqla bərabər, iltihab və mikrob əleyhinə də istifadə edilir.

Yemişan meyvələri və çiçəkləri təngnəfəslikdə də faydalıdır. Qalxanvari vəzin funksiyası artanda qırmızı yemişanın çiçəklərindən istifadə olunur.

Bəzi araşdırmalar təsdiq edir ki, yemişan şiş əleyhinə təsir gücünə malikdir. Bu giləmeyvə pektinlərlə zəngindir ki, bağırsaqları müxtəlif toksiki maddələrdən təmizləyir.

Onu da bildirək ki, yemişanın bir növü olan qara yemişanın yarpaq və meyvəsinin həm təzəsindən, həm də qurudulmuşundan hazırlanan çay güclü təsirə malikdir. Qara yemişan çayından ilboyu istifadə etmək üçün onun meyvəsini və yarpaqlarını qurudub saxlamaq lazımdır. Bu çay adi çaya alternativ hesab edilə bilir, amma onun tərkibində kofein olmur. Qara yemişanın müalicə məqsədilə mürəbbəsindən də istifadə edilir. Bu giləmeyvədə B1, C, PP vitaminləri, marqanes və fosfor var. Toxumlarının və yarpaqlarının tərkibi təbii turşular, efir yağları, karotin, dublin və pektinlə zəngindir.

Qara yemişan çayı göz damarlarını genişləndirməklə onun qan dövranını yaxşılaşdırır və gözlərdəki yorğunluğu aradan qaldırır. Bu çay qanda şəkərin miqdarının normallaşmasına səbəb olur.

Yemişanın çiçəkləri çiçəklənmənin başlanğıcında, yarpaqları çiçəkləmə dövründə, meyvələri isə yetişəndən sonra yığılır.

İngiltərədə yemişanın açılmamış qönçələrindən salat hazırlanır. Belə salat cəviz ləpəsinin dadını verir. Salat üçün onun təzə qönçələri və yarpaqları yığılır, yuyulur, xırda doğranır və xırda doğranmış iki ədəd bişmiş çuğundurla qarışdırılır, zövqə görə sirkə və ya limon şirəsi, duz və istiot qatılır.

Yemişanı kompot, dəmləmə şəklində də qəbul etmək olar.

Xalq təbabətində xüsusi vurğulanır ki, müalicə əhəmiyyətini səkkiz il saxlayan yemişanın meyvələri və çiçəklərini çoxlu miqdarda qəbul etmək olmaz. Bu, ürəyin fəaliyyətini poza bilər. Ona görə bu giləmeyvədən müalicə məqsədilə istifadə etməzdən əvvəl həkimlə məsləhətləşmək lazımdır.

✍ **Ramiyyə ƏKBƏROVA**

***Naxçıvan Dövlət Universitetində Vəliyəddin Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib.***

## Tanınmış alimin 100 illik yubileyi qeyd olunub



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov alimin müasir Azərbaycan elm və təhsil tarixindəki yerindən, dilçilik elminin inkişafındakı xidmətlərindən, universitetdəki səmərəli elmi-pedaqoji fəaliyyətindən bəhs edib.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Qənirə Əsgərova alimin həyat və fəaliyyəti ilə bağlı məruzəsində onun ömür yolundan, dilçilik sahəsində böyük bir məktəb yaratmasından, indiki Azərbaycan dilçiliyi kafedrasının formalaşmasındakı xidmətlərindən danışıb.

"Vəliyəddin Əliyev və klassik Azərbaycan ədəbiyyatı" mövzusunda məruzə edən filologiya üzrə elmlər doktoru, professor Hüseyn Həşimli konfrans iştirakçılarına görkəmli alimin yaradıcılığı, zəngin elmi irsi, Azərbaycan ədəbi dil tarixinin inkişafındakı rolu barədə ətraflı məlumat verib.

Filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərov "Azərbaycan dilçiliyində təzadlara aydınlıq gətirən alim" mövzusundakı məruzəsində Azərbaycan ədəbiyyatında bədii təsvir və bədii ifadə vasitələri haqda ilk araşdırma müəllifi kimi alimin əməyini xüsusi qeyd edib.

Sonda Vəliyəddin Əliyevin qızı, universitetin Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının baş müəllimi Rüxsarə Əsədova atası haqda xatirələrini bölüşüb, tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

**Səadət ƏLİYEVA**

## Gənclər arasında intellektual oyun



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində gənclər arasında "Nuh yurdu" intellektual oyunu keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən yarış 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təşkil edilib.

Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli və Gənclər Fondunun əməkdaşı Ceyhun Xəlilli çıxış edərək oyunun keçirilməsində məqsədin gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaqdan, onlar arasında bilik və elmin nüfuzunu artırmaqdan, eləcə də asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarət olduğunu bildirib, gəncləri 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik ediblər.

16 komandanın iştirak etdiyi oyun 4 yarımfinal və final mərhələsindən ibarət olub. Hər mərhələdə ən yüksək xal yığaraq birinci yerə çıxan komandalar finala vəsiqə qazanıblar. Belə ki, "Nuh", "Zərbə", "Buta" və "Zirvə" komandaları finalda mübarizə aparıblar. Sonda "Nuh" komandası qalib adını qazanıb. "Zərbə" komandası ikinci, "Zirvə" komandası isə üçüncü olub.

Qalib gələn komandalara təşkilatçılar tərəfindən kubok, diplom və fəxri fərmanlar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Tibb işçiləri hepatit B vaksini ilə immunlaşdırmaya cəlb ediliblər

Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan tibb işçilərinin B vaksini ilə immunlaşdırılması məqsədilə üç turdan ibarət immunlaşdırılma işi həyata keçirilir. Hepatit B vaksininin vurulması üçün orta tibb işçilərindən (vaksinator daxil olmaqla) ibarət briqada yaradılmışdır. Aksiya həm rayon mərkəzi xəstəxanalarının, həm də Naxçıvan şəhərindəki tibb müəssisələrinin işçilərini əhatə edir. Vaksin alan bütün tibb işçilərinin qanı Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə laboratoriyasında hepatit B virusuna qarşı analiz olunmuş və həmin qan nümunələrinin hepatit B-yə görə seroloji diaqnostikası aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin təşkilatçılığı ilə dekabrın 15-də tibb işçiləri arasında immunlaşdırma turuna start verilib. Bu mərhələyə müxtəlif səbəblərə görə əvvəlki turlarda iştirak etməyən, cari ildə işlə təmin olunan yüz nəfər həkim və orta tibb işçisi cəlb olunub.

Sonra vaksinatorlar tərəfindən 11 nəfər üzərində hepatit B vaksini ilə immunlaşdırma işi aparılıb.

Tədbir Naxçıvan şəhərinin digər səhiyyə müəssisələrində davam etdirilib. Rayonlarda isə bu işi gigiyena və epidemiologiya mərkəzlərinin nəzarəti altında rayon mərkəzi xəstəxanaları həyata keçirəcək.

Xatırladaq ki, B vaksini ilə immunlaşdırma işinin ikinci turu bir ay, üçüncü turu isə ikincidən altı ay sonra icra olunur. Muxtar respublikada ilk dəfə belə aksiya 2007-ci ildə, ikinci dəfə isə 2012-ci ildə Naxçıvan şəhərindəki cərrahi, ginekoloji və stomatoloji xidmətlə məşğul olan tibb müəssisələrində həyata keçirilmişdir. Həmin müddətdə cərrahların, ginekoloqların, stomatoloqların və digər tibb işçilərinin böyük bir qrupu hepatit B vaksini ilə peyvəndə cəlb olunub. 2007-ci ildə peyvənd alan tibb işçilərinin hamısı 2012-ci ildə revaksinasiya edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1034